# UMUDLU QƏTLİYAMI. PAPRAVƏND MÜHARİBƏSİ.

XX əsr boyu ermənilər tərəfindən işğal olunmuş minlərlə Azərbaycan -kəndinin biri də Papravənddir: 1993-cü il iyun ayının 26-da Papravənd kəndi işğal olundu. Bütöv bir əsr ərzində ermənilər nə qədər çalışsalar da, bu kəndi işğal edə bilmirdilər. 1905-1907-ci illərdə kükrəyib Azərbaycanı bürümüş erməni terroru vaxtı Papravənd kəndi Yelizavetpol quberniyasının Cavanşir qəsasına aid olan ərazi vahidiydi. Həmin vaxt Cavanşir qəzasındakı 227 kəndin yalnız 39-da erməni yaşayırdı və onlar da 1828-ci ildə Rusiya ilə İran arasnda bağlanmış Türkmənçay müqaviləsinə əsasən Qarabağ xanlığının ərazisinə köçürülmüş ermənilər idi. 1978-ci ildə həmin ermənilər Qarabağa köçürülmələrinin 150 illiyini təntənəli şəkildə qeyd edib, əlamətdar tarixi hadisəyə həsr olunmuş abidə ucaltdılar. XX əsrin başlanğıcında gəlmə ermənilərə göstəriş verilmişdi ki, Cavanşir qəzasındakı azərbaycanlı kəndlərini işğal edib, orada soyqırım törətsinlər, əhalinin var-dövlətini ələ keçirsinlər, müqavimət göstəriləcəyi təqdirdə od vurub kəndləri yandırsınlar, yerlə yeksan edib viran qoysunlar.

Ermənilər sayca az olsalar da, çox mütəşəkkil idilər; onlar vahid mərkəzdən idarə olunurdular, silah cəhətdən də heç bir bir problemləri yox idi. Hər bir erməni kəndi silah ambarıydı, ermənilər gecə-gündüz yatmır, öz kəndlərinin ətrafında səngərlər, istehkamlar düzəldir, müharibəyə hazırlaşırdılar. Müsəlman kəndlərində isə vəziyyət tam fərqliydi: o kəndləri idarə edən zadəgan əsilli məmurlar öz keflərindəydi, sadə camaat isə ətrafda nə baş verdiyini anlamırmış kimi görünürdül. Bu azmış kimi, ermənilər çar məmurlarının köməyiylə onların olub-qalan primitiv silahlarını, bölgədə, guya, sülh yaratmaq məqsədiylə əllərindən aldırır, ya da xüsusi öyrədilmiş adamlar göndərib satın alırdılar.

Erməni silahlı dəstələri 1905-ci ilin avqust ayından 1906-cı ilin iyun aynadək olan dövrdə Xaçın və Tərtər çayları hövzələrində, eləcə də Ağdərə bölgəsində kütləvi qırğınlar törətdilər. Onlar Cavanşir qəzasının azərbaycanlı kəndlərini, eləcə də Papravənd kəndini işğal edərək İrəvan, Zəngəzur, Şuşa və Gəncə erməniləri arasında əlaqə yaratmaq istəyirdilər. 1905-ci il oktyabr ayının 3-də ermənilər Sırxavənd və Əliağalı kəndlərini darmadağın etdilər. O hadisəni M.S. Ordubadi belə təsvir edir: “Vəhşi yırtıcılar südəmər körpələri beşiyi ilə odlayıb, bəzən də anasının qucağından alıb divarlara çırpmaqla para-para edir, süngülərə keçirirdilər.” Erməni müəllifi A-Do yazır: “1905-ci ildə

ermənilər Umudlu və İmarət Qərvənd kəndlərinə hücuma keçdilər. Bir neçə saatlıq müqavimət türkləri qırğından xilas etmədi. Ermənilər bu iki kəndə daxil olub barbarlıq törətdilər... Umudluda heç kimə aman vermədilər, qarşılarına çıxanı öldürürdülər...”

Cavanşir qəzasının Umudlu kəndində baş vermiş qətliyam o dövrün ən qanlı hadisələrindən biri hesab olunur. Bu, ermənilərin özlərinin də etiraf etdikləri soyqırım hadisəsidir. Hadisə barədə odvrün mətbuatı, eləcə də yazıçı M.S. Ordubadi ətraflı məlumat verir.

Çıraqlı, Hacıqərvənd və Pürxud kəndləri də ermənilər tərəfindən talan edilib yandırıldıqdan sonra Tərtər dərəsində Umudludan başqa müsəlman kəndi qalmamışdı. Vəziyyəti belə görən Umudlu camaatı qərara gəldi ki, köçmək lazımdır. Amma köçmək özü də asan məsələ deyildi, çünki hər tərəf erməni qulduruyla doluydu. Ona görə də kəndxudanı uyezd naçalnikinin yanına göndərdilər ki, mühafizə dəstəsi versin. Uyezd naçalniki rus idi – Pivovarov, dedi ki, mühafizə dəstəsi verə bilmərəm. Kəndxuda gəlib vəziyyəti camaata danışdı. Camaat dedi ki, onsuz da ermənilər gec-tez gəlib Umudlunu da viran qoyacaqlar, mühafizəsiz də olsa köçmək lazımdır.

1906-cı il dekabr ayının 26-da Umudlu camaatı mal-qoyunu və daşınması mümkün olan nə vardısa götürüb kənddən çıxdı. Erməni kəndi Heyvalının yanından keçəndə kəndxuda Abram onları gördü. Umudlunun kəndxudası İsmayılla Abram dost idilər. Ermənilər ağır vəziyyətdə olanda İsmayıl kəndxuda məhz Abramla dost olduğuna görə ermənilərə neft, buğda, şəkər və s. zəruri şeylərin verilməsinə köməklik göstərib onları xilas etmişdi. İndi də iki kəndxuda çox mehriban görüşdülər. Abram dedi, İsmayıl, biz səninlə dostuq, qardaşıq, sən mənə o qədər yaxşılıq eləmisən, indən belə yüz il də çalışsam əvəzini çıxa bilmərəm; indi mən heç cür razı ola bilmərəm ki, gecə vaxtı siz yol gedib əziyyət çəkəsiniz; qaçhaqaç deyil, arabaları açın, ocaq qalayın, qızının, çay için, çörək yeyin, dincinizi alın, lap istəyirsiniz yatın, sabah gedərsiniz; nəsə bir şey lazım olsa, deyin, bu saat tapıb gətirərəm. İsmayıl kəndxuda camaata dedi ki, Abramla mən neçə ilin dostuyuq, gədə-güdə tayı deyil, ömrümdə bu cür yaxşı erməni görməmişəm, gəlin onun sözünü yerə salmayaq, yaxşı deyil, xətrinə dəyər, məndən inciyər, gecəni burda qalaq, sabah tezdən yola düşərik . – İsmayıl

Abrama inandı, Umudlu camaatı da öz kəndxudasına inandı və Heyvalı tərəfdə gecələyəsi oldular.

Dekabr ayının axırıydı, hava çox soyuq idi. Camaat arabalardan yerə töküldü, ocaq qaladılar. Arvad-uşaq ocağın ətrafına toplaşıb qızınır,

közün üstündəki çayniklər dızıldayırdı, tezliklə çay da hazır olacaq. Hamı Abramı tərifləyirdi ki, halal olsun, erməni də olsa yaxşı adamdı. Dünyada tayı-bərabəri olmayan yaxşı erməni – Abram isə öz işindəydi: daşnak quldurlarına xəbər göndərdi ki, sizin üçün yaxşı ov yeri eləmişəm; Umudlu camaatı nəyi var götürüb gedirdi, onları aldadıb Heyvalı tərəfdə saxlamışam, ocaq qalayıb dincəlirlər; sakitcə gəlin hamısını qırın, var-dövlətlərini götürün, mənə zəhmət haqqı verməyi də unutmayın.

Şeypur səsi eşidildi. Bu, artıq hücum siqnalı olsa da, Umudlu camaatından heç kimin ağlına nəsə pis bir fikir gəlmədi, İsmayıl kəndxuda isti ocağın qırağında oturub hələ də Abramı tərifləyirdi. Ermənilər isə şeypur sədaları altında hücuma kecmişdilər və tez bir zamanda Umudlu camaatını mühasirəyə alıb gülləbaran etdilər. Baş verənləri faktiki material əsasında isti-isti qələmə alan M.S. Ordubadi yazır: "Əvvəlcə övrətləri kişilərdən kənar edib qoyun kimi başlarını kəsir, sonra övrətlərin bir hissəsini saxlayıb bir hissəsini öldürürlər. Bu qarışıqlıqda həmən insanların sallaxanasından ancaq 30 nəfər canını qurtarmışdı ki, bu sözləri nəql eləyirlər. Ermənilər hamilə övrətlərin xəncər ilə qarnını parçalayanda məsum cocuqların qanlı başları eşiyə çıxırmış. Müsəlmanın xanım övrətləri, qızları vəhşilərin əlində qalıb o tərəf, bu tərəfə qaçmaqda idilər." – Bu hadisə 1905-ci il dekabr ayının 26-da olub; heç olmasa ildə bir dəfə Umudlu qətliyamını da yada salmaq lazımdır. Ermənilər Azərbaycanın hanşı yaşayış məntəqəsində qətliyam törətmək imkanı vardısa, bu fürsəti əldən əldən verməyiblər.

Ordubadi daha sonra yazır: "Cavanşir qəzasında baş vermiş bu hadisə barədə müxbirimizin göndərdiyi yazının bəzi yerləri islanıb deyə oxuya bilmədim. Hesab edirəm ki, müxbir bu yazını yazanda alçaldılan xanım bacıların ağrılı faciəsinə dözməyib ağlamışdı; mən də o sətirlərin üstündən ağlaya-ağlaya keçdim."

Umudlu faciəsi barədə yazının sonuna Ordubadi öz mülahizəsini də əlavə edir: "Bəşər tarixinə nəzər salsaq görərik ki, indiyə qədər heç bir xalq qadın tayfasına bu qədər cəfa verməmişdir ki, ermənilər Ümidli camaatına etdilər. Bir ananın qabağında üç-dörd balasını qurban edib, balalar ayaq çaldıqda ananı gözləri yaşla dolu bir halda bihörmət etmək insafdırmı? Budurmu erməni mədəniyyəti!! Bu xəbis rəftarla istiqlaliyyət həvəsində olan bir millətin axırı nə olacaqdır, xəyalındayam. 150-ə qədər övrət və kişini doğrayıb biri-biri üstə qalayıb atəş ilə yaxmaq mədəniyyətli bir millətə yaraşandırmı?!..."

Ermənilər Tərtər vadisindəki bütün kəndləri bu cür dağıdıb sonra Xaçın dərəsinə keçdilər. 1906-cı ilin yanvar ayı girən kimi Xaçın dərəsindəki Şıxavənd kəndinə hər tərəfdən hücum edib əhaliyə divan tutdular, qətl-qiyamdan sonra məscidi və minbəri də yandırdılar.

Növbəti hədəf Papravənd kəndiydi. Ordubadi yazır: "Papravənd kəndi zəngin və sərvətli olduğu kimi, bir çox müharibəedici cavanları da var idi.

Bu kənd erməni sərhədlərində yrləşən yaraşıqlı bir kənddi. Papravənd kəndi müharibə üçün yararlı cavanlara malik olduğundan ermənilər bu kəndi o biri cavanşir kəndlərinə bərabər tutmayaraq çoxlu əsgər tədarükündə idilər. Ona görə çoxlu əsgərin toplanıb yığılmasıandan sonra məşhur erməni komandanı Hamazaspın rəhbərliyi altına verib 1906-cı il yanvarın birinci günü Papravənd kəndinə hücuma başladılar"

Hamazasp Srvantsyan erməni generalıdı, Türkiyədə anadan olub. Orada türk xalqına qarşı qətlyamlar törətikdən sonra Rusiyaya qaçdı, 1905-ildə isə Qarabağda terror mərkəzi yaratmışdı. Hamazaspa general rütbəsi Qarabağın dinc azərbaycanlı əhalisinə qarşı törətiyi qırğınlara görə verilib. Erməni xalqının qəhrəmanları sırasında Hamazaspın da adı var. Papravəndə hücum vaxtı erməni quldurlarına general Hamazasp başçılıq edirdi.

O döyüş barədə Mir Möhsün Nəvvab məlumat verib yazır ki, ermənilər burda özlərinin say çoxluğuna arxalanaraq ətraf erməni kəndlərindən çoxlu qüvvə toplayıb qəflətən hücuma keçdilər və kəndi mühasirəyə aldılar. Hücum sübh tezdən olduğuna görə kənd camaatının əksəriyyəti yuxudaydı, tezdən oyananlar isə sübh namazı qılırdılar. Yaxınlıqdakı dağlardan birində qoyun otaran çoban görür ki ermənilər hücum edib kəndi hər tərəfdən mühasirəyə aldılar. Çoban qoyunları dağda yiyəsiz qoyub müsəlman kəndləri tərəfə qaçır və deyir ki, ermənilər Papravəndə hücum ediblər, onlara kömək lazımdır. Müsəlmanlar bu xəbəri eşidən kimi silahlanıb atlara minərək Papravənd tərəfə çapdılar. Çatan kimi salavat nərəsi çəkərək erməniləri arxadan mühasirəyə aldılar. Arxadan və qabaqdan endirilən şiddətli zərbə nəticəsində ermənilər böyük tələfat verdilər, sağ qalanlar döyüş meydanından qaçıb dağlarda və meşələrdə gizləndilər.

M.S.Ordubadi özünün "Qanlı illər" adlı əsərində Papravənd müharibəsinə xüsusi yer verərək yazır ki, bir gün axşama qədər şiddətli müharibə oldu. Azərbaycanlılarla daşnaksütyunçular və erməni könüllüləri arasında baş verən bir günlük şiddətli müharibə zamanı

ermənilər məğlub olaraq axşam Ağdərə tərəfə çəkildilər. Bu xəbəri qonşu müsəlman kəndlərinin camaatı eşidib hərtərəfdən köməyə gəldilər. Səhərki gün ermənilər daha böyük qüvvəylə yenidən Papravəndə hücuma keçdilər. Bu dəfəki döyüş daha şiddətli oldu. Çoxsaylı erməni quldurlarının hücumu artilleriya atəşiylə müşahidə olunurdu. Lakin böyük say üstünlüyü və daha yaxşı silahlanmalarına baxmayaraq, general Hamazaspın başçılıq etdiyi erməni quldurları Papravənddə növbəti dəfə ağır məğlubiyyətə uğradılar. Məğlub olub gözü qorxmuş erməni quldurları silah-sürsatı döyüş meydanında atıb qaçmağa başladılar. Bərk qaçmaq üçün onlar qış vaxtı əyinlərinə geyindikləri isti paltarı da soyunub atırdılar.

Tarixə Papravənd müharibəsi kimi düşmüş döyüş barədə yazını Ordubadi belə yekunlaşdırır: “Bu Papravənd müharibəsində müsəlmanlar bir az gözlərini açıb anladılar ki, erməni millətinə yalvarmaqla yerinə oturmaz, onlara qarşı hərbi silah işlətmək lazımdır”

XX əsrin sonlarında yenidən kükrəyib tüğyan edən erməni quldurları Qarabağ bölgəsinin digər kəndləri kimi, Papravəndi də hədələyirdilər. O vaxt Papravəndi müdafiə edən Azərbaycan ordusunun əsgərləri və yerli özünümüdafiə dəstəsinin üzvləri erməni quldurlarına layiqli cavab verirdilər.

Əslən Mingəçevirdən olan əsgər Ruslan Muradov və Qərbi Azərbaycanın Pəmpək mahalında anadan olmuş əsgər Əsəd Əhmədov Papravənd kəndi uğrunda gedən döyüşlərdə şücaət göstərib qəhrəmancasına həlak oldular. Hər iki döyüşçü ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülüb.

Qarabağ torpağının hər qarışı uğrunda gedən qanlı döyüşlərdə əslən Papravənddən olan igid oğlanlar da az deyildi: Məmmədov Taleh Bulud oğlu, Abbasov Mütalib Əli oğlu, Əliyev Raqub Səfiyar oğlu və başqaları son damla qanlarınadək vuruşub qəhrəmancasına həlak oldular. Onlardan biri – Ağayev Faiq Alış oğlu isə ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşdür. – Torpaq, əgər uğrunda ölən varsa, vətəndir. Azərbaycan oğlu öz topağı uğrunda döyüşməyi də bacarır, ölməyi də. Belə igid övladları olan xalqın torpağı işğal altında qala bilməz.

***

Tarixi mənbələrə və faktlara əsasən, məqaləni yazdı:

**RAMİZ ABBASLI**